Gürcüstanın nüfuzlu ən uzunömürlü nəşrlərindən olan “Sakartvelos Respublika” (“Gürcüstan Respublikası”) qəzetinin 18 dekabr tarixli nömrəsində “Azərbaycan region və Avropa üçün sabitliyə təminat verən ölkəyə çevrilmişdir” sərlövhəli məqalə dərc olunmuşdur.
Yazıda qeyd edilir ki, Azərbaycanda həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkənin beynəlxalq məkanda real güc kimi qəbul olunması, dünyanın aparıcı dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi, nüfuzlu beynəlxalq təşkilatlarda mövqeyinin güclənməsi və başqa məqamlar onun region və Avropa üçün sabitliyin təminatçısına, Şərqlə Qərb arasında etibarlı körpüyə çevrildiyini təsdiq edir.
Sonra oxuculara son 10 ildə Azərbaycanın keçdiyi inkişaf yolu barədə konkret faktlarla ətraflı məlumat verilmişdir. Ölkədə siyasi və iqtisadi islahatların paralel surətdə aparıldığı, demokratiyanın inkişafı, insan hüquqlarının qorunması, azad cəmiyyətin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər də gürcü oxucuların diqqətinə çatdırılmışdır.
Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkə həyatında baş vermiş əsaslı dəyişikliklər, Prezident İlham Əliyevin varisliyə sədaqət nümunəsi sayəsində Azərbaycan-Gürcüstan münasibətlərinin daha da dərinləşdirildiyi qeyd olunur.